## Sevda ƏLİBƏYLİ - 60

# SEVDA ÖMRÜ

Sevda Əlibəylinin doğum tarixi 1960-cı ilin 9 may günüdür. Əvvəllər sevinclə gözlədiyi doğum gününü illərdi qeyd eləmir. 8 may Şuşanın işğalıyla bağlı ağrılı bir gün yaşadığından doğum günündə sevinə bilmir.

Bunu hamımız yaxşı bilirik. Odur ki, Sevda xanımın yubiley yaşını Milli Mətbuat günündə təbrik etdik. Və nə xoş ki, Sevda xanımın yubiley yaşı dahi ustad Həsən bəy Zərdabinin təməlini qoyduğu Milli Mətbuatımızın 145 illiyinə düşür.

Əməlləri hər zaman müasir olan Zərdabi babamızın ruhu şad olsun.

Sevda xanıma isə sağlam canla yaradıcılıq uğurları arzulayırıq.

Kainat sevgi üstündə bərqərar olub. Yerlər, göylər, ulduzlar, planetlər ilahi eşq zənciri ilə bir-birinə bağlıdır. Dünya sevdalı dünyadır... Və Allah dünyanı sevgi ilə idarə edir. İnsan qəlbi də kainat qədər geniş və əngindir. Hər insan qəlbinin də öz dünyası var - yerə, göyə, kainata sığmayan Sevgi dünyası. İnsan da sevdalı bir dünyadır. Bu dünyanın ulduzları isə Söz zənciri ilə həlqələnmişdir...Və insanların sevdalı dünyasını Əlahəzrət Söz idarə edir.

Söz Tanrının insana bəxş etdiyi ilahi nemətdir. Bu ilahi həqiqəti dərk edənlər sözün sevdasına düşürlər. Özlərini unudub Söz ömrü yaşayırlar. "Söz" jurnalının baş redaktoru Sevda Əlibəyli kimi. Onun adı təsadüfən Sevda qoyulmayıb. Xalq arasında xüsusi hörməti olan atası Bəhram müəllimin elmli, sevdalı bir dünyası olub. Ədəbiyyatlı, riyaziyyatlı, musiqili, şeirli, sənətli zəngin bir söz dünyası olub Bəhram müəllimin. Hərtərəfli biliyə malik olan bu zəngin kişinin ailəsində məhz elə söz ömrü yaşayanlar doğulmalı idi...Və min bir nəğmə üstündə köklənən ədəbiyyatlı, musiqili bir aləmi, min bir rəngi özündə ehtiva edən rəssam fırçalı dünyası, qəlbində öz sözü, əlində öz qələmi olan Sevda doğulmalı idi. Təpədən dırnağa, başdan ayağa ruhu sözlə, ahənglə, gözəlliklə yoğrulan ədəbiyyat adamı, xalqın, ictimaiyyətin qayğılarını öz dərdi kimi dilləndirən fədakar söz adamı doğulmalı idi.

"Fədakar" sözünü təsadüfi işlətmədim. Universitetin jurnalistika fakültəsinə daxil olmaq onun ilk fədakarlığı idi. Ailə və universitet qayğıları ilə birgə "Lənkəran"-qəzetində çalışaraq qısa bir müddətdə öz savadı, qələmi və xarakteri ilə kollektivin, eləcə də rayon ictimaiyyətinin hörmətini qazanmaq onun növbəti fədakarlığından xəbər verir. İşlədiyi "Lənkəran" qəzetinin səhifələrinə öz cəsarətli və əhatəli yazıları ilə, özünəməxsus bədii-publisist dili ilə yeni bir dad gətirən Sevda xanım qəzetin redaktorunun və rayon rəhbərliyinin etimadını doğruldur.

Uzun müddət "Lənkəran" qəzetinin redaktoru işləmiş, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almış, bütün SSRİ məkanında tanınan şair Şəkər Aslanın Xalq Cəbhəsi hakimiyyəti illərində haqsız yerə işdən uzaqlaşdırılması bütün kollektivi məyus etsə də, heç nədən çəkinmədən onun hüquqlarının bərpa olunması üçün mübarizəyə qalxan məhz Sevda Əlibəyli oldu. Bütün rəsmi orqanlara yazılı və şifahi müraciət etdi, o zamanın "bərkgedən" qəzetlətindən olan "Müxalifət" qəzetində bu haqsızlığı respublika səviyyəsində ictimailəşdirməyi bacardı. Nəticədə Şəkər Aslan Prezident Administrasiyasında Cənub bölgəsi üçün yeni təsis olunan, bölgənin ədəbiyyatını, tarixini, mədəniyyətini, ictimai-siyasi həyatını özündə əks etdirən ədəbi-bədii, publisistik jurnala baş redaktor təyin olundu. Jurnal yaradıcılığının ən qaynar dövrünü yaşayan şair Ş.Aslanın təşəbbüsü ilə "Söz" adlanaraq ölkənin mətbuat tarixinə qədəm qoydu. Jurnalın baş redaktor müavinliyini isə qələminə, işgüzarlığına və sədaqətinə inandığı Sevda Əlibəyliyə tapşırdı. Həmin illərdə Şəkər Aslan Sevda xanıma həsr etdiyi şeirlərin birində onu "kişi ruhlu qadın" adlandıraraq yazırdı:



Həyatda yol getdim xeyirlə, şərlə,
Dedim ayırd edim yaxşını pisdən.
Üz-üzə gəldikcə nakişılərlə
Sevdim kişi ruhlu qadınları mən...

Hardasa, kim isə xətrimə dəydi,
Nə duydum ağrıyan könül səsində...
Ah, bəzi kişilər dura biləydi
Qeyrətli qadınlar səviyyəsində.

"Söz" jurnalının ərsəyə gəlməsində əsas ağırlıq o dövrdə də Sevda xanımın üzərinə düşürdü. Çünki Bakıda yaşayırdı və jurnal "Azərbaycan" nəşriyyatında nəşr olunurdu. Bütün çətinliklərə baxmayaraq Sevda xanım işinin öhdəsindən ləyaqətlə gəlir, poliqrafik və bədii baxımdan gözəl bir jurnal ərsəyə gətirərək oxucuları sevindirir, jurnala olan rəğbət hissini artırırdı. Şəkər Aslanın vaxtsız ölümündən sonra bütün ağırlıq Sevda xanımın üzərinə düşdü. Baş redaktor kimi jurnalın nəşrini yenidən davam etdirməyə başladı, hər nömrədə Şəkər Aslanın şəklini və imzasını verərək adını əbədiləşdirdi. Yeri gəlmişkən qeyd edim ki, onun məni baş redaktor müavini kimi işə götürməsi özünün diqqətcil olması ilə yanaşı, həm də Şəkər Aslanın ruhuna sədaqətin ifadəsi idi.

"Söz" jurnalı Sevda xanımın gərgin əməyi sayəsində bu gün də nəşrini davam etdirir. Müstəqil ədəbi-publisistik jurnal kimi bütün respublikada və digər ölkələrdə də yayımlanır. Məhz onun intellekti və jurnalist bacarığı sayəsində bugünkü çoxsaylı mətbuat orqanları arasında "Söz" sayılıb-seçilən jurnallardan biridir. Jurnal həm bədii, həm də poliqrafik baxımdan yüksək keyfiyyətlə nəşr olunur. Bugünki informasiya bolluğu və abunə problemləri dövründə oxucusunu qoruyub saxlamaq, jurnal nəşr etmək hansı maddi və mənəvi çətinliklərin hesabına başa gəlməsi isə, məncə, hamıya məlumdur. Sevda xanımın isə gücü tükənmir, daha da artır. Onun sayəsində jurnalın hər sayı çıxanda Şəkər Aslanın ruhu sevinir.

Sevda Əlibəyli təkcə publisistika ilə məşğul olmur. O həm də gözəl nasirdir. Ara-sıra qələmini bədii nəsrdə də sınayır. Onun general-mayor Aydın Məmmədova həsr etdiyi "Xəzərin general oğlu", teatr fədaisi İmamverdi Bağırovun sənət taleyindən söz açan "Tanrısı haqq olan aşiq", ömrünü mətbəə və nəşriyyat işinin inkişafına həsr etmiş Şəddat Cəfərov haqqında "İlk poliqrafçı alim", müəllim və hüquqşünas Sabir Qarayevə həsr etdiyi "Ömrün mənası", ərəbşünas alim Malik Qarazadədən danışan "Bilsəm ki, həyatda izim qalıbdır", şair-publisist Allahverdi Məmmədli haqqında "Haçandı görüşmürük", həyatını kənd təsərrüfatının inkişafına həsr etmiş, qəhrəmanın adı ilə adlandırılan "Səadət Tağıyev" adlı publisist kitabları ilə yanaşı "Bəyaz gecənin qızları" adlı bir hekayələr kitabı da var. Real hadisələrdən danışan bu hekayələrdə müasirlərimizin həyat tərzi, qayğı və düşüncələri, saf məhəbbət duyğuları ustalıqla əks olunub. Kitaba daxil olunan yumoristik hekayələr də oxunaqlıdır, oxucunu düşünməyə məcbur edir. Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan Sevda Əlibəyli Prezident mükafatçısıdır. Rəsul Rza adına beynəlxalq ədəbi, Dədə Qorqud, Məhsəti Gəncəvi, Xan qızı Natəvan və "Qızıl Qələm" və s. media mükafatlarına, icra orqanları tərəfindən dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür.

Sevda Əlibəyli həyatda doğruluq axtarır və hər işdə, hər kəsin nəzərində özünü də doğrultmağa çalışır. Onun sözü ilə əməli həmişə vəhdətdədir və bu məsuliyyət onu hamının qarşısında doğruldub. Atası Bəhram kişinin, ustadı Şəkər Aslanın, ömür-gün yoldaşı Mükafatın, oğlu Toğrulun və neçə-neçə doğma insanların, qələm dostlarının etimadını doğruldaraq özünə sayqı və məhəbbət qazanmışdır.

Oğlunun adını təsadüfən Toğrul qoymayıb. "Toğrul" adı "doğrul", "doğru ol" ifadəsinin türk dillərindəki qədim səslənməsindən götürülüb. Bu ad tarixən ən şərəfli adlardan biri sayılıb. Bu söz Sevda Əlibəylinin həyat idealıdır. İnanırıq ki, oğlu Toğrul da bu adı doğruldacaq.

Ən böyük doğruluq isə Sevda xanımın Sözə və "Söz" jurnalına olan sevdasındadır. Çünki o dərk edir ki söz ilahi bir varlıqdır, insana Allah tərəfindən bəxş edilib. Sözün müqəddəsliyini qoruyanlar onun sevdasına düşənlər, saflıq, doğruluq eşqi ilə sevda ömrü yaşayanlardır.

Sevda xanım da İlahi Sözə tapınıb öz "Söz"ü ilə sevda ömrü yaşayır. Bu il may ayında 60 yaşı tamam oldu Sevda ömrünün. Bu ömrün müdriklik mərhələsidir. Mən də onu "Sözün Sevdası" adlı şeirimlə təbrik edir və inanıram ki, sözü daha uca zirvələrdə əks-səda verəcəkdir.

Sevdadır qəlbinin ən böyük varı,
Cahana sığmayır nazın Sevdası.
Soyuq sinələrdə əridər qarı
Bənövşə ətirli yazın Sevdası.

Min bir ağrısını daddın sənətin,
İnadın söz kimi qürurlu, mətin.
Haqqın nur yolunu doğruldub eşqin,
Tarixdə ad qoyub izin Sevdası.

Ürəyin göylərtək boşalıb, dolub,
Əsən küləklərin saçını yolub.
Həmişə başının üstündə olub
Çörəyin Sevdası, duzun Sevdası.

Sözün hər niqabı Tanrı qatıdır,
Sözlə keçən ömür toy büsatıdır.
Qəlbinin ilahi mükafatıdır
Ev-ocaq başında közün Sevdası.

Çoxları gün sayır söz həvəsində,
Bülbültək ötürsən öz qəfəsində.
Dağlar dağ daşıyar dağ sinəsində,
Dağı dağ eyləyər düzün Sevdası.

Ürəklər söz ilə gətirər bəhər,
Sözlə könüllərdə açılar səhər.
Dünyanı bir sözlə nura döndərər
Bir sirli, işıqlı üzün Sevdası.

"Söz"lə nəfəs alıb yaşayır hər an,
Üzünə eşq ilə gülümsəyir dan.
Gözləri nur alıb Şəkər Aslandan,
Hikmətə aynadı gözün Sevdası.

Sözə səcdə etdin, güldü üzə baxt,
Sözlə ucaldıbsan özünə bir taxt.
İlahi sevgidən od alıb hər vaxt
Əbədi yaşayar Sözün Sevdası.



*Ağamir CAVAD*